**UOT 316**

# POST-MÜHARİBƏ DÖVRÜNDƏ DAYANIQLI VƏ OPERATİV SOSİALTƏMİNAT AGENTLİYİNİN ROLU

**Zümrüd HÜSEYNOVA***

Məqalə redaksiyaya daxil olmuşdur: 6 noyabr 2023; çapa qəbul edilmişdir: 26 noyabr 2023; online-da çap edilmişdir: 26 dekabr 2023.

Received: 6th of November, 2023; accepted: 26th of November, 2023; published online: 25th of December, 2023.

**Açar sözlər:** *DOST, post-müharibə, sosial idarəetmə, sosial təminat, Azərbaycan Respublikası, sosial xidmətlər, sosial müdafiə*

## Giriş

Hazırda Azərbaycan Respublikası post-müharibə dövrünü yaşayır. Bu dövr müharibə dövründən də çətin görünür. Çünki bu dövrdə insanların yenidən həyat əlaməti yaradılan ərazilərə reinteqrasiyası, normal həyat fəaliyyəti üçün mümkün bütün infrastrukturun qurulması əsas şərtlərdəndir. Bu istiqamətdə bir çox işlər planlaşdırılır. Lakin bunların içərisində "Dayanıqlı və Operativ Sosial Təminat Agentliyi"nin fəaliyyəti və aktuallığı danılmaz bir faktdır.

## 1. "Dayanıqlı və Operativ Sosial Təminat Agentliyi"nin inkişaf xüsusiyyətləri

Post-müharibə dövrünü yaşayan hər bir ölkə çalışır ki, dövlət idarəçiliyində müasir standartlara uyğun və cəmiyyətin transformasiyası üçün əlverişli olan alternativ formullar və modellər irəli sürsünlər. Ən uyğun model isə modernləşmə modelidir. Məlumdur ki, dünya müharibələrindən sonra dünyanın, demək olar ki, hər bir nöqtəsində modernləşmə prosesi həyata keçirildi. Modernləşmə modeli hər bir ölkədə cəmiyyətin müəyyən sahələrinə, məsələn, iqtisadi sahəyə, siyasi sahəyə və ya sosial sahələrdən birinə sirayət etmişdir. Post-müharibə dövrünü keçən bir çox ölkə kimi Azərbaycan Respublikası hərtərəfli inkişafı və ya yenidən bərpanı əsas tutaraq bu sahədə əhəmiyyətli konsepsiyalar, layihələr hazırlamışdır. Bu konsepsiyaların, layihələrin təsdiqi dövlət qurumlarındakı səmərəli idarəçilikdən keçir. Bunlar içərisində ən uğurlusu "Dayanıqlı və Operativ Sosial Təminat" konsepsiyasıdır. Doğrudur, bu konsepsiyanın dövlət idarəçiliyindəki təməli 2018-ci ildən atılmışdır. Bunun əsasında Azərbaycanın "Dayanıqlı və Operativ Sosial Təminat Agentliyi" yaradılmışdır. Lakin yeni yaranmasına baxmayaraq, bu 5 il ərzində işğaldan azad edilmiş ərazilərdə təqdirəlayiq uğurlu işlər reallaşdırmağa müvəffəq oldu. Bu konsepsiya Azərbaycan Respublikasının vacib sosial uğurudur.

İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan Ordusunun tarixi qələbə qazandığı 44 günlük Vətən müharibəsi, eləcə də anti-terror əməliyyatından sonrakı dövrdə şəhid ailələrinə və müharibə iştirakçılarına genişmiqyaslı sosial dəstək tədbirləri həyata keçirilməkdədir. Həmin sosial dəstək tədbirləri içərisində genişmiqyaslı fəaliyyətini icra etməkdə olan qurum "Dayanıqlı və Operativ Sosial Təminat Agentliyi"dir. Azərbaycan Respublikası Prezidenti İlham Əliyevin 2018-ci il avqustun 9-da imzaladığı fərmana əsasən, "DOST" Agentliyinin əsası qoyulmuşdur. Azərbaycanın "Dayanıqlı və Operativ Sosial Təminat Agentliyi" modeli əslində son illərdə yaradılmış yeni sosial modeldir. Hansı ki, bu model yaranması ilə köhnə idarəetmə sistemindən səmərəli və sürətli şəkildə keçidə imkan yaratdı. DOST Agentliyi fəaliyyətə

* *doktorant, Azərbaycan Milli Elmlər Akademiyası Fəlsəfə və Sosiologiya İnstitutu*
*e-mail:* zumrud.huseynova2023@gmail.com

başladığı qısa müddət ərzində ölkəmizin inkişaf etdirilməsində müstəsna rol oynamışdır. DOST Agentliyinin struktur və idarəetməsi, eyni zamanda ölkə daxilində həyata keçirdiyi xidmətlər və proqramlar, layihələr, əməkdaşlıqlar beynəlxalq standartlara uyğun icra olunmaqdadır. DOST mərkəzlərində məşğulluq, əmək münasibətləri, əmək pensiyası və sosial müavinətlər, Azərbaycan Respublikası Prezidentinin təqaüdləri, əlillik, sosial sığorta və sosial xidmətlər istiqamətində, həmçinin bank və notariat xidmətləri kimi funksional yardımçı xidmətlər də daxil olmaqla ümumilikdə 159 xidmət göstərilir" [9]. Birinci Vitse-prezident Mehriban Əliyevanın təşəbbüsü ilə yaradılan DOST layihəsi əhaliyə "bir pəncərə"dən operativ, şəffaf və nəzakətli, həmçinin vətəndaş rahatlığı prinsipi əsasında sosial xidmətlərin göstərilməsini nəzərdə tutur. Cari dövrə qədər 1, 2, 3, 4, 6 saylı iş "Rəqəmsal İnnovasiyalar", "İnklüziv İnkişaf və Yaradıcılıq" mərkəzləri fəaliyyətə başlamışdır. DOST mərkəzlərində innovasiya, yeni texnologiyalar, gənclərin bu işlərə cəlb olunması, könüllülərin fəaliyyəti kimi prinsiplərin həyata keçirilməsinə xüsusi diqqət verilir. Agentliyin idarəetmə strategiyası əhalinin rifahının yüksəldilməsinə, əhalinin həssas qruplarına ictimai qayğının gücləndirilməsinə, bunu təmin etmək üçün innovativ həllərin həyata keçirilməsinə və bu cür təşəbbüslərin müqabilində vətəndaş məmnunluğunun artırılmasına yönəlmişdir. Bu məqsədlə də, 2025-ci ilə qədər ölkəmizdə 17 DOST mərkəzi və 55 DOST filialı fəaliyyətə başlayacağı proqnozlaşdırılır.

"DOST" Agentliyi və "Dövlət Məşğulluq Agentliyi" arasındakı əməkdaşlıq çərçivəsində yeni konsepsiya hazırlanır. Konsepsiya işsiz şəxslərin qəbulu və portfel üzrə təklif edilən iş prosesini əhatə edir. Konsepsiya çərçivəsində məşğulluq istiqaməti üzrə bir sıra xidmətlərin DOST mərkəzlərində karyera məsləhətçiləri tərəfindən göstərilməsi nəzərdə tutulub.

Yeni məşğulluq konsepsiyasının DOST mərkəzlərində tətbiqi fərdi məşğulluq proqramının tərtib edilməsi əsasında təşkilinə yönələcək.

Nəticə etibarilə, bu islahat işsiz şəxsə onun əmək bazarına çıxışına dəstək üçün daha uyğun məşğulluq tədbirinin təyin edilməsinə, işədüzəltmə sayının, xidmətlərdə səmərəliliyin və eyni zamanda, işəgötürənlərin məmnunluq səviyyəsinin daha da artmasına, vahid, sistemli yanaşmanın tətbiqinə və daha real nəticələr əldə edilməsinə yönəlib.

Digər bir yenilik "Təhsil Tələbə Krediti Fondu" arasında "Anlaşma" və "DOST Mediasiya Məkanı" fəaliyyətə başlamasıdır. DOST Agentliyi ilə "Təhsil Tələbə Krediti Fondu" arasında "Anlaşma" memorandumu imzalanıb. Tərəflər könüllü və təcrübə proqramlarında iştirakın dəstəklənməsi, Agentliyin işində elmi-tədqiqat işlərinin və innovasiyaların tətbiqinin genişləndirilməsi, birgə layihələrin həyata keçirilməsi və s. istiqamətlərdə razılığa gəliblər.

Bakı DOST Mərkəzində "DOST Mediasiya Məkanı" fəaliyyətə başlamışdır. Mediasiya mübahisələrin məhkəmədən kənar həlli üsuludur. Tərəflər arasında yaranmış mübahisələr mediatorun vasitəçiliyi ilə qarşılıqlı razılıq əsasında, qanunla müəyyən edilmiş qaydada həll olunur. Tərəflər məhkəmə prosesi olmadan mübahisələrin həllinə nail ola bilirlər. Bununla yanaşı olaraq, cari ilin noyabr ayında Azərbaycan Respublikasının Prezident İlham Əliyev hərbi qulluqçuların sosial müdafiəsinin gücləndirilməsi istiqamətində yeni fərmanlar imzalamışdır. "Sənədlərə əsasən xidmət etdiyi qurumdan asılı olmayaraq bütün hərbi qulluqçuların aylıq vəzifə maaşları 1 yanvar 2024-cü il tarixindən 20 faiz artırılıb. Digər fərmana əsasən Müdafiə Nazirliyinin Xüsusi Təyinatlı Qüvvələrinin (XTQ) hərbi qulluqçularının aylıq təminat xərcliyinin tərkibi optimallaşdırılacaq, bu kateqoriyadan olan şəxslərə pensiya təyinatı zamanı pensiya məbləğinin hesablanması üçün əsas götürülən hissənin məbləği artırılacaq. Nəticədə həmin şəxslərə pensiya təyinatı zamanı pensiya məbləğində ciddi artım imkanı yaranacaq, həmçinin onların təminat xərcliyində artım baş verəcək" [13].

## 2. Azad olunmuş torpaqlarda "DOST" Agentliyinin fəaliyyəti

Hazırda işğaldan azad olunmuş ərazilərdə yenidənqurma və reinteqrasiya işləri icra edilməkdədir. Bu fəaliyyət hərtərəfli istiqaməti nəzərdə tutur. Bu fəaliyyət mexanizmi hüquqi sənəddə-Dövlət Proqramında yer alan müddəalar əsasında icra edilir. Bildiyimiz kimi, ötən il

"Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərinə Böyük Qayıdışına dair I Dövlət Proqramı" təsdiq olunmuşdur. Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərinə Böyük Qayıdışına dair I Dövlət Proqramı "Azərbaycan Respublikasının 2022–2026-cı illərdə sosial-iqtisadi inkişaf Strategiyası"na əsaslanaraq hazırlanmışdır. Bu proqramın başlıca məqsədi ölkəmizin yeni mərhələdə qarşıya qoyulmuş hədəflərinin reallaşdırılmasıdır. Torpaq sahələrinin kənd təsərrüfatı dövriyyəsinə cəlb olunması, əkilib becərilməsi, heyvandarlıq təsərrüfatlarının bərpa olunması, iqtisadiyyatın yenidən qurulması, turizmin inkişafı kimi bir neçə istiqamət üzrə plan-prospektlər hazırlanmışdır. Onlardan biri "təhsil, səhiyyə və sosial xidmətlərin qurulmasıdır. Müharibədən keçən iki ilin statistikasına baxsaq, ilkin addımlar heç də məhdud deyil. Ağdamda 140 illik tarixi olan Ağdam şəhər 1 saylı məktəbin yeni binasının təməli qoyulub. Füzulidə Peşə Liseyinin təməli atılıb. Zəngilan şəhərinin mərkəzində 960 şagirdlik məktəbin, Füzulidə 180 çarpayılıq xəstəxananın və s. təhsil, səhiyyə obyektlərinin bünövrə daşları atılıb.

Əhalinin yaşayışı üçün rahat şəraiti olan çoxmənzilli binaların inşası da paralel aparılır. Ağdam şəhərində inşa olunacaq ilk yaşayış binası, Fizulidə çoxmənzilli yaşayış məhəlləsi, Zəngilanda 6 ikimərtəbəli, 4 üçmərtəbəli binaların tikintisinə start verilib.

Paytaxt və iri şəhərlərdə qurulan əlverişli xidmət sektoru – "ASAN" xidmət və "DOST" mərkəzlərinin işğaldan azad edilən ərazilərdə də yaradılması Dövlət Proqramında öz əksini tapıb. Bu, məskunlaşacaq əhalinin sosial xidmətlərə çıxışını asanlaşdırmaq məqsədi daşıyır" [11].

Yuxarıda da qeyd olunduğu kimi, II Qarabağ müharibəsindən sonra azad olunmuş ərazilərdə yenidən bərpa işləri durmadan davam edir. Bu işlərin uğurlu icrası reinteqrasiya prosesini sürətləndirir. Bu ərazilərdə yaşayışı bərpa etmək üçün təməl ehtiyaclardan biri sosial xidmətlərin olmasıdır. Əmək və əhalinin sosial müdafiəsi naziri Sahil Babayevin məlumatlarına əsasən "sosial xidmətlərin göstərilməsi üçün Şuşada çox özəl bir mərkəz yaradılacaq. Prezident bu istiqamətlər üzrə öz tapşırıqlarını verib" [10].

İşğaldan azad edilmiş ərazilərimizdə DOST xidmətləri şəbəkəsinin qurulmasına dair "Qarabağ və Şərqi Zəngəzur" DOST proqramı Şuşa şəhərində təqdim olunub.

Hazırda DOST konsepsiyasının Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonları üzrə də genişlənməsi üçün işlər aparılır. Şuşa şəhərində yerləşən 4 mərtəbəli köhnə poçt binasının birinci mərtəbəsində Şuşa DOST filialının yaradılacağı, binaya giriş, xidmət otaqları, iş sahəsi və xidmət zalının DOST mərkəzlərinin interyer konsepsiyasına uyğun tərtib olunacağı bildirilib. İşğaldan azad edilmiş ərazilərimizlə bağlı "Qarabağ və Şərqi Zəngəzur" DOST proqramı üzrə həmin ərazilərdə bir neçə mərkəz, filial və xidmət məntəqələri də yaradılacaq.

DOST proqramı "Böyük Qayıdış" planının bir parçasıdır. ""Böyük Qayıdış"ın birinci pilot layihəsi artıq Zəngilanda müvəffəqiyyətlə icra edilib. 200 evdən ibarət kənd salınıb. Onun işıq, qaz, su, məktəb, bağça, tibb məntəqəsi, "ASAN", "DOST" kimi kiçik və orta biznesə dəstək xidmətləri yaradılıb. Ağalı kəndinin ilk sakinləri öz yurdlarına qovuşub. Sözsüz ki, bəhs olunan Dövlət Proqramının uğurlu icrası Qarabağ və Şərqi Zəngəzurun inkişafına güclü təkan verəcək, daha neçə-neçə kənd və şəhərlərə insan nəfəsi dəyəcək, gözəl mənzillərdən gur işıqlar yanacaq!" [11].

Zəngilan rayonunun Ağalı kəndində 27 may 2022-ci il tarixində Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyevanın iştirakı ilə ölkə üzrə ilk "Smart DOST" xidmət məntəqəsi artıq istifadəyə verilib. "Smart DOST" sistemi ilə vətəndaşlar əmək, məşğulluq, sosial müdafiə sahəsində onlayn formada 100-dən çox xidmətdən şəffaf, rahat, əlçatan şəkildə faydalana biləcək.

### 3. Beynəlxalq təcrübədə "DOST" Agentliyi

DOST Agentliyi "Tanınma və inkişaf" devizi ilə beynəlxalq əlaqələrini 4 əsas istiqamət üzrə qurur:

DOST konseptinin aidiyyəti beynəlxalq platformalarda tanıdılması;

Beynəlxalq ekspert və donor təşkilatları ilə əməkdaşlıq əlaqələrinin genişləndirilməsi;

Beynəlxalq təşkilatlar ilə sosial müdafiə və təminat sahələrində birgə layihələrin həyata keçirilməsi;

Beynəlxalq təcrübədən istifadə etməklə Agentliyin institusional inkişafının dəstəklənməsi" [4].

Sosial təminat sahəsində "Dayanıqlı və Operativ Sosial Təminat" (DOST) Agentliyi nümayəndələri tərəfindən beynəlxalq təşkilatlar və xarici ölkələrin sosial təminat sahəsi ilə əlaqədar fəaliyyət göstərdiyi dövlət qurumları ilə beynəlxalq əməkdaşlıqlar yaradılır və dayanıqlı fəaliyyət üçün bu istiqamətdə əməkdaşlıqlar genişləndirilir. Bu fəaliyyət və əməkdaşlıqların inkişaf dinamikası aşağıdakı kimi özünü büruzə verir:

İlk növbədə qeyd etmək istərdim ki, DOST Agentliyi dünyanın 164 ölkəsininin müvafiq qurumlarını özündə birləşdirən Beynəlxalq Sosial Təminat Assosiasiyasına (BSTA) üzv qəbul olunmuşdur. "Sosial müdafiə institutları, dövlət təşkilatları və agentlikləri üzrə dünyanın aparıcı təşkilatı olan BSTA hərtərəfli sosial təminatı, bu sahədə innovativ metodları və dəyərləri təbliğ edir. DOST Agentliyi 2021-ci ildə əhaliyə çatdırılan xidmətlərin səviyyəsini və daxili prosedurları inkişaf etdirmək məqsədilə BSTA Tanınma Proqramına qoşulmuşdur. 2022-ci ildə isə bu proqram çərçivəsində "Xidmət Keyfiyyəti" üzrə "BSTA Mükəmməllik Sertifikatı" ilə təltif edilib. Bundan əlavə, "Avropa üzrə Yaxşı Təcrübə Mükafatı - 2022" müsabiqəsində "Vətəndaş məmnunluğu monitorinq sistemi", "DOST Agentliyi: ləyaqət və bərabər hüquqlar naminə" və "DOST: 65 yaşdan yuxarı şəxslərin sosial müdafiəsi" ərizələri ilə iştirak edən DOST Agentliyi müsabiqənin qalibi elan edilib" [6].

Azərbaycanın DOST təcrübəsini öyrənməyə maraq göstərən ölkələrin sayı artır. Belə ki, DOST Agentliyi davamlı şəkildə xarici ölkələrdə təşkil olunan beynəlxalq konfranslarda iştirak edərək öz fəaliyyət təcrübələrini dünya ölkələri nümayəndələri ilə bölüşürlər. Məsələn, DOST Agentliyi nümayəndəlikləri Qazaxıstanın Almatı şəhərində 2022-ci ilin avqust ayında Beynəlxalq Pensiya və Sosial Fondlar Assosiasiyası (BPSFA) tərəfindən təşkil olunan "BPSFA–30 il" mövzusunda beynəlxalq konfransda iştirak etmişdir. DOST Agentliyini Məlumatların idarə edilməsi və təhlil departamentinin müdiri Şahin Zülfüqarov təqdimatla konfransda çıxış etmişdir. O, "DOST-un fəaliyyəti, 4 il ərzində əldə etdiyi uğurlar və innovativ təcrübələr barədə təqdimat keçirib. "Xidmətlərin göstərilməsində innovativ yanaşma" adlı təqdimatda DOST konsepsiyası, xidmətlər və innovativ yanaşmalar haqqında ətraflı məlumat verilib. Sosial xidmətlər sahəsində texnoloji həllər konfrans iştirakçıları tərəfindən maraqla qarşılanıb. Müstəqil Dövlətlər Birliyi (MDB) məkanında DOST təcrübəsinin əhəmiyyətli olduğu vurğulanıb. Bu təcrübənin digər MDB ölkələrində də uğurla tətbiq edilə biləcəyi qeyd olunub" [5].

Bununla yanaşı, DOST Agentliyi Avropa Sosial Şəbəkəsi Şurasının üzvü seçilib. Dost Agentliyinin BMT-nin əhali fondu və inkişaf proqramı Avropa sosial şəbəkəsi Beynəlxalq Sosial Təminat Assosiasiyası ilə əməkdaşlıqları dünya təcrübəsinə əsaslanaraq ölkənin bütün yaş kateqoriyalarını əhatə edən sosial təşəbbüs, təşkilati və informasiya dəstəyinin təmin olunması, səhiyyə, təhsil, məşğulluq kimi sosial xidmətlər sahəsində məlumat mübadiləsini inkişaf etdirmək, DOST konsepsiyasını tanıtmaq məqsədilə sosial təminat xidmətləri sahəsindəki bütün tədbirlərində, konfranslarında və beynəlxalq müzakirələrində aktiv iştirakını təmin edir.

Daha bir nailiyyət –"Avropa İttifaqının (Aİ) "Azərbaycanda pensiya islahatlarına dəstək –"Faza 2" tvinninq layihəsinin açılış mərasimi olub. Aİ tərəfindən maliyyələşdirilən və iki il davam edəcək "Azərbaycanda pensiya islahatlarına dəstək–Faza 2" tvinninq layihəsinin əhəmiyyətindən bəhs ediblər. Layihənin pensiya sahəsində islahatlar prosesində öz rolunu oynayacağı vurğulanıb. Bildirilib ki, "Azərbaycanda pensiya islahatlarına dəstək" tvinninq layihəsi ümumilikdə ölkəmizdə pensiya sisteminin rəqəmsallaşdırılması və bu sistemin uzunmüddətli inkişafı üçün sığorta-pensiya sisteminin fəaliyyətinin aktuar modellər əsasında təkmilləşdirilməsi və s. ilə bağlı əməli tədbirlərin hazırlanaraq tətbiq edilməsini nəzərdə

tutur” [1].

DOST konsepsiyası artıq Azərbaycanın yeni və yerli brendi kimi beynəlxalq arenada tanınır. DOST Agentliyi 5 il ərzində beynəlxalq təcrübələrdən səmərəli və çevik istifadə edərək bu gün “DOST modeli artıq vahid xidmət məkanından vahid informasiya, innovasiyaların mübadiləsi platformasına çevrilir” [2]. Bu proqressiv inkişafı dünya təcrübəsinə nümayiş etdirmək məqsədilə 7-8 Sentyabr 2023-cü il tarixində “DOST 2023: çevik, innovativ və davamlı xidmətlərin göstərilməsi üçün vahid platforma” adlı beynəlxalq konfrans təşkil edilmişdir. Bu konfrans Azərbaycanda ilk dəfə sosial xidmətlər sahəsində keçirilmiş beynəlxalq konfransdır.

“Konfransın məqsədi yerli və beynəlxalq ekspertləri bir araya gətirməklə sosial xidmətlər sahəsində surətli inkişaf perspektivlərinin qiymətləndirilməsi, innovativ yanaşmaların və müasir texnologiyaların tətbiq edilməsi ilə gələcək inkişaf yollarının müəyyənləşdirilməsidir.

Həmçinin, vahid platforma üzrə mövcud təcrübələrin bir araya gətirilməsi, trendlərin müəyyən edilməsi, qlobal məqsədlərin formalaşdırılması, DOST konsepsiyasının yerli və qlobal miqyasda tanınma səviyyəsinin artırılması, müsbət və mənfi təcrübələrdən faydalanılması, DOST Agentliyinin uğurla nəticələnmiş layihələrinin və fəaliyyətlərinin gündəmə gətirilməsi, eləcə də DOST xidmətləri barədə ictimaiyyətin məlumatlandırılması konfransın əsas məqsədlərindəndir” [2].

Bu il üçün “Dayanıqlı və Operativ Sosial Təminat (DOST) Agentliyi və Bakı Dövlət Universitetinin birgə təşkilatçılığı ilə Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin 100 illik yubileyi, DOST Agentliyinin 5 illiyinə həsr olunmuş "Sosial sahədə müasir dövlət xidmətlərinin formalaşmasının elmi paradiqması" mövzusunda elmi-praktiki konfrans keçiriləcək” [12].

Yuxarıda sadalan bütün nailiyyətlər “DOST” modelinin uğurlu sosial model olduğunu bir daha təsdiq edir.

**Nəticə**

Çoxsaylı “DOST” mərkəzlərinin, “DOST” xidmətlərinin yaradılması ilə vətəndaşların, xüsusilə, işğaldan azad olunmuş ərazi sakinlərinin rifahının yüksəldilməsində, həssas qruplara ictimai qayğının gücləndirilməsində, bunu təmin etmək üçün innovativ həllərin həyata keçirilməsində və vətəndaş məmnunluğunun artırılmasında kifayət qədər yüksək nəticələr əldə olunmuşdur. İşğaldan azad olunmuş ərazilərimizdə işsizlərin əmək bazarına çıxışına dəstək üçün səmərəli məşğulluq tədbirləri tərtib edilmişdir. II Qarabağ müharibəsindən, anti-terror əməliyyatından sonrakı dövrdə şəhid ailələrinə və müharibə iştirakçılarına qarşı genişmiqyaslı sosial dəstək tədbirləri həyata keçirilir.

## ƏDƏBİYYAT


1. Azərbaycanda pensiya islahatlarına dəstək – “Faza 2” tvinninq layihəsinin açılış mərasimi olub (https://sosial.gov.az/media/xeberler/Azerbaycanda-pensiya-islahatlarina-destek-Faza-2-tvinninq-layihesinin-achilish-merasimi-olub_648847) 17 yanvar 2023, 11:53.
2. Bakıda “DOST 2023: çevik, innovativ və davamlı xidmətlərin göstərilməsi üçün vahid platforma” adlı beynəlxalq konfrans keçirilir (https://report.az/sosial-mudafie/azerbaycanda-ilk-defe-sosial-xidmetler-sahesinde-beynelxalq-konfrans-kecirilir/) 7 Sentyabr 2023, 10:22.
3. DOST konsepsiyası-Azərbaycanın mühüm sosial uğuru (https://ikisahil.az/ post/ 332717-dost-konsepsiyasi-azerbaycanin-muhum-sosial-uguru) 09:17.
4. DOST Agentliyi (https://az.wikipedia.org/wiki/DOST_Agentliyi)
5. DOST Agentliyi daha bir beynəlxalq konfransda (https://dost.gov.az/ news/469) 18 avqust 2022, 16:30.
6. DOST Agentliyi Beynəlxalq Sosial Təminat Assosiasiyasının mükafatlarına layiq görülüb. (https://dost.gov.az/news/402) 4 may 2022, 11:13.
7. DOST Agentliyi Beynəlxalq Sosial Təminat Assosiasiyasına üz qəbul olunub. (https://progro.az/yazi/dost-agentliyi-beynelxalq-sosialteminat assosiasiyasina uzv-qebul-

olunub--/2610)
8. DOST-un daha bir beynəlxalq uğuru (https://dost.gov.az/news/681) 26 aprel2023,
9. Xidmət pasportları. (https://dost.gov.az/services)
10. Qarabağ və Şərqi Zəngəzurun inkişafına təkan verən Dövlət Proqramı (https://www.muallim.edu.az/ news.php?id=23263 21 Dekabr 2022)
11. Şuşada özəl mərkəz yaradılacaq-Nazir açıqladı (https://qafqazinfo.az/news/detail/susada-ozel-merkez-yaradilacaq-nazir-aciqladi-32993500648.) 16 iyulun 2021.
12. Ümummilli Lider Heydər Əliyevin 100 illik yubileyi ilə əlaqədar keçiriləcək elmi praktiki konfransda iştirak etmək istəyənlərin nəzərinə. (https://dost.gov.az/ news/822) 3 noyabr 2023, 11:39.
13. Yeni imzalanan fərmanlar hərbi qulluqçuların sosial müdafiəsinin gücləndirilməsinə xidmət edir. (https://dost.gov.az/news/828) 7 noyabr 2023, 16:32.
14. Azerbaijan to establish DOST center in Shusha (https://www.azernews.az/nation/ 204465.html). Nakhchivan 1 January 2023,14:18.

***Резюме***

***Зумруд Гусейнова***

***Роль устойчивого и действующего агентства социальной защиты в послевоенный период***

Агентство ДОСТ, созданное Указом Президента Азербайджанской Республики Ильхама Алиева №229 от 9 августа 2018 года и утвержденное определением направлений деятельности на основании Указа №387 от 10 декабря 2018 года, является инновационным институтом, способствующим успешному руководству процессом модернизации нашей страны в послевоенный период. Инициатором проекта выступила президент Фонда Гейдара Алиева Мехрибан Алиева. Создание агентства ДОСТ можно рассматривать какначало качественно нового этапа в сфере социальных услуг.

За 5-летнюю деятельность Агентства ДОСТ организация различных социальных услуг доказала, что является успешной социальной моделью. Благодаря деятельности агентства ДОСТ, вынужденные переселенцы на освобожденных от оккупации территориях имеют доступ к трудоустройству, трудовым отношениям, трудовой пенсии, социальным пособиям, инвалидности, социальному страхованию и т.д. Нормальная жизнедеятельность обеспечивается по направлению социального обслуживания. DOST – большое достижение Азербайджана в сфере социальных услуг.

Сотрудничество Агентства ДОСТ с такими международными организациями, как BPSTA BSTA UN EU, развивается с каждым днем. Моделью DOST интересуются не только международные институты и организации, но и страны, которые заинтересованы в изучении опыта DOST в Азербайджане. Агентство ДОСТ постоянно выступает на международных конференциях, организуемых в зарубежных странах, и делится опытом своей деятельности с представителями профильных учреждений стран мира. Отрадно, что, как и страны, пережившие послевоенный период, мы когда-то использовали существующие модели, основанные на мировом опыте. Но сейчас есть много стран мира, которые хотят воспользоваться нашим успешным опытом.

**Ключевые слова:** *ДОСТ, послевоенное время, социальное управление, социальное обеспечение, Азербайджанская Республика, социальные услуги, социальная защита*

***Summary***

***Zumrud Huseynova***

***The role of a Sustainable and Operational Social Security Agency in the Post-WarPeriod***

The DOST agency, which was created by the Decree of the President of the Republic of Azerbaijan Ilham Aliyev No. 229 dated August 9, 2018 and was approved by determining the directions of action based on the Decree No. 387 of December 10, 2018, is an innovative institution that encourages the successful direction of the process of modernization of our country in the post-war period. The project was initiated by Mehriban Aliyeva, president of the Heydar Aliyev Foundation. The establishment of the DOST agency can be considered as the beginning of a qualitatively new stage in the field of social services.

During the 5-year activity of the DOST Agency, the organization of various social services has proved that it is a successful social model. Thanks to the activity of the DOST agency, IDPs in the territories freed from

occupation have access to employment, labor relations, labor pension, social benefits, disability, social insurance, etc. normal life activities are ensured in the direction of social services. DOST is a great achievement of Azerbaijan in the field of social services.

Cooperation of DOST Agency with international organizations such as BPSFA, BSTA, UN, EU develope day by day. There are not only international institutions and organizations interested in the DOST model, but also countries that are interested in learning the DOST experience of Azerbaijan. DOST Agency continuously makes speeches at international conferences organized in foreign countries and shares its activity experience with the representatives of the relevant institutions of the world countries. It is a happy occasion that once upon a time our country like the countries that experienced the post-war period used existing models based on world experience. But now there are many countries of the world who want to benefit from our successful experiences.

**Keywords:** *DOST, post-war, social management, social security, Republic of Azerbaijan, social services, social protection*

Redaksiya heyətinin üzvü f.ü.f.d., dos. Məmmədov Hüseyn Qaraxan oğlunun rəyi əsasında çapa məsləhət görülmüşdür.